Beynəlxalq seminara Cənubi Koreyanın müxtəlif peşə təhsili müəssisələrinin və agentliklərinin rəhbərləri, həmçinin Qırğızıstan, İndoneziya, Nepal, Banqladeş, Kamerun, Yəmən, Vyetnam, Tanzaniya, Anqola və s. ölkələrin peşə təhsili sahəsinə rəhbərlik edən şəxslər qatılıblar. Seminarın təşkilində əsas məqsəd Koreyada peşə hazırlığı sisteminin təşkili, peşə təhsili siyasətinin formalaşdırılması prinsipləri və təhsil müəssisələrinin fəaliyyətləri ilə tanış olmaq, Cənubi Koreya hökumətinin dəstəyi ilə peşə təhsili sistemini yenidən quran ölkələrdə həyata keçirilən layihələr barədə məlumat toplamaq idi.

Məlumat üçün qeyd edək ki, Cənubi Koreya Respublikasının inkişafında texniki peşə təhsili mühüm rol oynayır. Belə ki, ötən əsrin 50-ci illərində adambaşına düşən milli gəlir 200 dollar təşkil etdiyi halda, hazırda Cənubi Koreyada bu göstərici 20 min dollardan çoxdur. Qısa müddət ərzində Cənubi Koreyanın dünyada iqtisadi inkişaf baxımından lider ölkələrdən birinə çevrilməsində əmək bazarının tələblərinə müvafiq olaraq ixtisaslı kadr hazırlığını həyata keçirə bilən peşə təhsili sisteminin formalaşması xüsusi əhəmiyyət kəsb edir.

Səfər zamanı Koreya Politexnik Kollecində, İnsan Resursları İnkişaf Xidmətində, Koreyanın iri sənaye şirkətləri olan Hyundai və POSCO-nun bir sıra istehsal müəssisələrində görüşlər keçirilib.

Təhsil Nazirliyinin nümayəndələri ilə Bakıda “Qabaqcıl Texnologiyalar üzrə Peşə Tədris Mərkəzi”nin yaradılması təşəbbüsü ilə çıxış edən “DEU İnternational” və “ED Corporation”un təmsilçilərinin görüşləri də yaddaqalan olub. Görüşlərdə layihənin Azərbaycan hökuməti ilə razılaşdırılması və həyata keçirilməsi üçün səylərin gücləndirilməsi məsələləri müzakirə edilib.